***Bəşəriyyət tarixində sözün əhəmiyyəti misilsizdir və ona həm təsirli, həm də strateji "silah" kimi yanaşırlar. Lakin söz silahdan fərqli olaraq zamanın və məkanın sərhədlərini aşaraq bütün dünyaya təsir göstərmək potensialına malikdir. Söz, dialoq, fikir mübadiləsi fikir mübadiləsi sosial-iqtisadi, siyasi və mədəni konfliktlərin həllində ilk və təməl vasitə kimi çıxış edir. Söz həm də kütləvi şüurun hərəkətverici qüvvəsi kimi fərdi və kollektiv iradəni formalaşdırır, motivasiya edir, yönləndirir. Fikir mətbuatda əks olunanda kollektiv yaddaşa, ümummilli ideyaya çevrilir. Çünki mətbuat ictimai fikrin daşıyıcısı, tarixin yaddaş mülküdür. Mətbuat inkişaf etdikcə insan daha da kamilləşir, çünki informasiya və fikir azadlığı mənəvi tərəqqinin zəruri şərtidir. Azərbaycan mətbuatı 150 illik tarixi ilə bu tərəqqi yolunun həm şahidi, həm daşıyıcısı, həm də təşəbbüskarlarından olmuşdur. Həsən bəy Zərdabinin 1875-ci ildə "Əkinçi" ilə başlatdığı maarifçi missiya milli düşüncəni oyatmaq, xalqı öz gerçəyi ilə tanış etmək idi. "Əkinçi" ilə əsası qoyulan milli mətbuat qələm əhli üçün kürsü, xalq üçün ayna oldu. O aynaya baxanlar millətin ağrı-acısını, sevincini, istəyini, ehtiyacını gördülər. Bu gün Azərbaycan mətbuatı 150 illik zəngin irsi yaşadaraq onu müasir texnologiyalarla birləşdirir, informasiya mühitinin çağırışlarına cavab verir, dövlətin və vətəndaş cəmiyyətinin qarşılıqlı dialoqunu formalaşdırır. Bu isə keçmişlə gələcək arasında körpü rolunu oynayır, cəmiyyətə fikir azadlığı, ictimai məsuliyyəti təlqin edir. Bu məqamda insanı bir çox suallar düşündürür: "Əkinçi" qəzeti ideoloji təsir baxımından milli özünüdərk prosesində necə rol oynayıb? Bu gün sürətli informasiya axını və dezinformasiyanın artdığı şəraitdə peşəkar jurnalistikanın etik prinsiplərinə necə əməl olunur, çap və elektron mediada keyfiyyət, etibarlılıq və təsir imkanları arasında hansı fərqlər mövcuddur? Son texnologiyaların müasir mediaya mənfi və müsbət təsirləri nədən ibarətdir? Bu sualları əməkdar jurnalistlər Afət Telmanqızı və Aytəkin Alxaslı daha ətraflı cavablandırdı.***

# "Əkinçi"

# Tarixin yaddaş mülkü



**Afət Telmanqızı:** "Azərbaycan mətbuatının qürurverici tarixinin başlanğıcı 150 il əvvələ, 1875-ci ilin 22 iyuluna, Həsən bəy Zərdabinin gərgin əməyi və maarifçi dünyagörüşünün bəhrəsi olan "Əkinçi" qəzetinin ilk sayının nəşrinə təsadüf edir. Bu bir xalqın maariflənməyə, öz kimliyini dərk etməyə, cəmiyyətin problemlərini səsləndirməyə başlamasının simvoluna çevrilmişdi. "Əkinçi" milli mətbuatımızın ilk qəzeti olmaqla yanaşı, milli düşüncənin, ictimai şüurun, tənqidi baxışın və vətəndaş məsuliyyətinin bünövrəsini qoydu.

Həsən bəy Zərdabi öz dövrünü xeyli qabaqlayaraq mətbuatın təkcə xəbər vasitəsi deyil, həm də maarifçi, tərbiyəvi və cəmiyyətə yön verən güclü ideoloji tribuna olduğunu göstərdi. Onun əsas məqsədi mətbuat vasitəsilə xalqın təfəkkürünü oyatmaq, elmə, təhsilə, texniki tərəqqiyə maraq yaratmaq və cəmiyyətin bəlalarına diqqət çəkmək idi. Zərdabi yazırdı ki, qəzeti millət üçün bir aynaya bənzədirəm: necə ki insan aynaya baxıb simasındakı eyibləri görür, qəzet də millətə öz eyiblərini göstərir. "Əkinçi" qəzetinin dili sadə, xalqın gündəlik danışıq tərzinə yaxın idi. Bu da onun oxucu kütləsini genişləndirir, xalqla jurnalistika arasında körpü qururdu. O dövr üçün bu, cəsarətli və yenilikçi addım idi. Çünki elitar, farslaşmış və ruslaşmış dilə qarşı xalq dili ilə danışmaq, xalqın problemlərini öz dilində qələmə almaq həm ideoloji, həm də mədəni baxımdan yenilik idi. Qəzetdə təkcə siyasət və ictimai problemlər deyil, o dövr üçün kənd təsərrüfatı, təbiət elmləri, gigiyena, ailə tərbiyəsi, qadınların rolu kimi mövzular da işıqlandırılırdı. Zərdabi xalqı savadlanmağa, övladlarını oxutmağa, müasir biliklərə yiyələnməyə çağırırdı. Əkinçilikdən tutmuş təmizliyə qədər geniş sahələrə toxunan yazılar maarifləndirici missiyanı yerinə yetirirdi.

"Əkinçi"nin fəaliyyəti cəmi iki ilə yaxın çəkdi - 1877-ci ildə qəzetin nəşri dayandırıldı. Amma bu qısa ömürlü qəzet milli oyanış prosesində uzunmüddətli təsirə malik oldu. "Əkinçi"dən başlanan yol daha sonra "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kaspi", "Molla Nəsrəddin" kimi mətbuat orqanlarında öz davamını tapdı. Zərdabinin ideyaları, "Əkinçi" ənənəsi Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Əlimərdan bəy Topçubaşov və digər bir çox ziyalılar tərəfindən daha da inkişaf etdirildi. Bu gün Azərbaycanın media məkanında atılan hər bir müstəqil addım, dilə gətirilən hər bir azad fikir, cəmiyyətə ünvanlanan hər sual və çağırış birbaşa ya da dolayı yolla "Əkinçi"nin ruhunu daşıyır. Hətta sosial mediada cəmiyyətə ünvanlanan maarifçi statuslar belə bir növ "söz əkmək", "əkinçilik" etməkdir.

150 il sonra bu mirasa, keçmişə boylananda anlayırıq ki, "Əkinçi" yalnız qəzet deyil, bir ideologiya, bir mövqe, cəmiyyətə xidmət modelidir. Biz bu gün də söz əkməklə məşğuluq, informasiya əkinçiliyini davam etdiririk. Bu əkinin nə qədər məhsul verəcəyini gələcək göstərəcək, amma "Əkinçi"nin başlatdığı yolun faydalı və şərəfli olması artıq sübut edilib.

Bu gün yaşadığımız informasiya cəmiyyətində məlumat bolluğunda istiqamətimizi müəyyənləşdirmək bəzən çətinləşir. Zaman var idi ki, xəbərin mənbəyi yalnız rəsmi qəzet və jurnallar, televiziya və radio idi. Amma indi hər bir insan cibindəki smartfonla həm xəbər oxuyur, həm də istehsal edir. Media mühiti köklü şəkildə dəyişib, informasiya sürəti bir çox hallarda dəqiqliyi və keyfiyyəti qabaqlayır. Texnologiyanın inkişafı ilə informasiya əldə etmək asanlaşıb, lakin bu asanlıq bəzən informasiya təhlükəsizliyi, mənbə etibarlılığı və etik prinsiplər baxımından risklər də yaradır. Artıq yazılı və hətta elektron media da bir çox hallarda sosial medianın arxasında qalır. Çünki sosial media operativliyi ilə cəlbedicidir - yayılır, qarşılıq alır və reaksiya doğurur. Bu isə bəzən peşəkar jurnalistika üçün ciddi problemlər yaradır. Belə ki, son illərdə sürətlə yayılan fenomen olan vətəndaş jurnalistikası informasiya axınında yeni mərhələ açıb. Hər kəs öz şəxsi sosial media hesabında xəbərlər paylaşır, video çəkir, baş verənləri canlı yayımlayır. Bir tərəfdən bu, demokratik yanaşmadır - informasiyanı təkcə media orqanları deyil, sıravi insanlar da yayır. Digər tərəfdən, bu vəziyyət jurnalistikanın əsas qayda və prinsiplərinin - xüsusilə də obyektivlik, məlumatların dəqiqliyi, qarşı tərəfin mövqeyini öyrənmək kimi prinsiplərin pozulmasına gətirib çıxarır. Ən böyük təhlükə isə dezinformasiyanın artmasıdır. Çox zaman paylaşım edən şəxs informasiyanın doğru olub-olmadığını yoxlamır. Bəzən bu məqsədli şəkildə, bəzən isə bilmədən (misinformasiya) edilir. Amma nəticə dəyişmir, ictimai rəy manipulyasiya olunur, yalan məlumatlar yayılır, insanların emosiyaları ilə oynanılır. Peşəkar jurnalist isə xəbəri yayımlamazdan əvvəl ən azı 3 mənbədən dəqiqləşdirməli, qarşı tərəfin mövqeyini öyrənməli, informasiyanı etik normalara uyğun şəkildə təqdim etməlidir. Təəssüf ki, "ilk olaraq vermək" yarışı bu prinsipləri gözdən salır. Sosial media çağında bəzən xəbərin özü yox, onun başlığı daha çox diqqət çəkir. Oxucunu cəlb etmək üçün "şok", "inanılmaz", "ağlasığmaz" kimi manipulyativ başlıqlardan istifadə olunur. Amma bu başlıqlar çox vaxt xəbərin məzmununu əks etdirmir. Bu isə etik pozuntu olmaqla yanaşı, oxucunun mediaya olan etibarını da sarsıdır. Jurnalist və ya xəbər paylaşan şəxs birinci olmaq istəyərkən etibarlı olmaq prinsipini arxa plana atır. Halbuki etibarsız xəbər birbaşa olaraq cəmiyyətin informasiya immunitetini zəiflədir.

Müasir texnologiyalar medianın imkanlarını genişləndirib. Artıq jurnalistlər real vaxtda hadisə yerindən canlı bağlantı qura, hadisəni video və fotolarla müşayiət edə, interaktiv qrafikalarla oxucunun diqqətini çəkə bilir. Bu, məlumatın daha əhatəli və təsirli çatdırılmasını təmin edir. Lakin bu imkanlar dezinformasiyanın da yayılmasını asanlaşdırır. Məsələn, süni intellektlə hazırlanan saxta videolar ("deepfake"), kontekstdən çıxarılmış fotolar və manipulyativ montajlar informasiyanın vizual təsir gücündən sui-istifadə formasıdır. Bu isə yalnız texnoloji yox, həm də etik məsələdir. Bu gün sosial media platformalarında da təsir imkanları genişlənib. Artıq gündəmi mətbuat yox, bir "tvit", bir "post" dəyişə bilir. Amma bu dəyişikliklərlə yanaşı, etibarlılıq məsələsi daha da aktuallaşır. Məlumatların mənbələri açıq formada göstərilməli, faktlar müstəqil şəkildə yoxlanmalı, qarşı tərəfin mövqeyi nəzakətli və obyektiv təqdim olunmalıdır. Cəmiyyətin mediaya olan inamı yalnız bu yolla bərpa edilə və qoruna bilər.




Nəticə olaraq, müasir medianın əsas çağırışı informasiyanı tez və geniş yaymaqla yanaşı, düzgün, dəqiq və məsuliyyətlə təqdim etməkdir. Texnologiya informasiya vasitələrinə sürət qazandırır, lakin jurnalistikanın peşə prinsipləri - obyektivlik, etibarlılıq, etik yanaşma dəyişməz qalmalıdır. Çünki "ilk xəbər" deyil, amma doğru xəbər vermək hər zaman daha önəmlidir".



**Aytəkin Alxaslı:** "Alovlu maarifçi və jurnalist Həsən bəy Zərdabinin qələmindən doğulan "Əkinçi" qəzeti bir xalqın özünüdərkinin başlanğıcı oldu. Bu gün biz bu ideyanın əsr yarımlıq ömür yoluna nəzər salır, Azərbaycan mətbuatının 150 illik yubileyini qeyd edirik. Əslində bu tarix, sadəcə bir qəzetin yaşını qeyd etmək deyil, bu, sözə, informasiyaya, həqiqətə, maarifə verilən dəyərin, xalqın yaddaşında yer alan mətbuat əxlaqının doğum günüdür. "Əkinçi" qəzeti ilə Zərdabi cəmiyyətə güzgü tutdu. Onun üçün mətbuat xalqı oyatmaq, maarifləndirmək və inkişafa sövq etmək vasitəsi idi. O, yazmırdı ki, oxunsun, yazırdı ki, düşündürsün, dərk edilsin və dəyişdirilsin.

Zərdabi məktəbi ilə formalaşan milli mətbuat ənənələri təkcə informasiya yaymaq yox, xalqla dövlət, ağıl ilə cəmiyyət arasında körpü rolunu oynamaq missiyası daşıdı. "Əkinçi"nin adının özündə belə bir rəmz gizlidir - bu qəzet söz əkməyə gəlmişdi. Hər bir sətri ilə xalqın şüuruna, düşüncəsinə toxum səpirdi. O toxumlar əsrlər boyu boy atdı, jurnalistikanın müxtəlif sahələrinə, janrlarına çevrildi. Bu gün Azərbaycan mediasının istər çap, istərsə də rəqəmsal müstəvidə əldə etdiyi uğurların ideoloji kökü məhz "Əkinçi"nin torpağında boy verib. Əgər Zərdabi dövrünün savadlı kütləsini mətbuat vasitəsilə səfərbər etməyə çalışırdısa, bu gün jurnalistlər həmin mirası daşıyaraq oxucunun şüuruna və vicdanına xitab etməlidirlər. Çünki söz jurnalistikada təkcə informasiya vasitəsi deyil, həm də ideya daşıyıcısı cəmiyyətin intellektual göstəricisidir. Söz bəzən bir məqalədə, bəzən bir başlıqda, bəzən də bir cümlənin arxa fonunda gizlənmiş həqiqətdir.

Unutmayaq ki, jurnalistika bədii ədəbiyyatdan fərqli olaraq daha sərt meyarlarla, daha ciddi məsuliyyətlə yüklənib. Əgər yazıçı obraz yaradırsa, jurnalist reallığın özünü təqdim edir. Burada söz yalnız estetik funksiya daşımır, eyni zamanda informasiya daşıyır, oxucu ilə sosial bağ yaradır, cəmiyyətin fikirlərini istiqamətləndirir. Bu baxımdan, jurnalistin fəaliyyəti dəqiqlik, obyektivlik, qərəzsizlik və aktuallıq prinsipləri üzərində qurulmalıdır. Zərdabinin fikirləri ilə desək, maarifdən, elmdən məhrum xalq işıqdan məhrumdur. Bu gün bu işığın mənbəyi müxtəlif texnologiyalar ola bilər, lakin onun daşıyıcısı hələ də qələmdir, fikirdir, sözün gücüdür. Zaman dəyişib, jurnalistikada platforma dəyişib, kağız qəzetlərdən elektron mediaya, oradan da süni intellekt əsaslı sistemlərə keçilib. Amma mahiyyət dəyişməyib: cəmiyyətə doğru və obyektiv informasiya çatdırmaq, xalqın maariflənməsinə xidmət etmək. Azərbaycan mətbuatı müasir texnologiyalar, rəqəmsal platformalar və informasiya bolluğunda içində fəaliyyət göstərir. Amma bu mühitdə də Zərdabi ənənələri - dürüstlük, cəmiyyətə xidmət, maarifçilik prinsipləri əsas yolgöstərən kimi qalır. İstər xəbər saytında, istər televiziya kanalında, istərsə də sosial şəbəkədə jurnalist öz peşəsini məsuliyyətlə daşımalıdır. Çünki söz, onun ötürdüyü məna və təsir yalnız mətn deyil, həm də mənəvi yükdür".

Milli mətbuatımız dinamik inkişaf edir, müasir çağırışlara cavab verir, informasiya cəmiyyətinin ayrılmaz parçası kimi fəaliyyət göstərir. Ənənəvi jurnalistika prinsipləri ilə yanaşı, innovativ texnologiyalar, rəqəmsal platformalar və süni intellekt əsaslı alətlər medianın yeni simasını formalaşdırır. Təkcə söz deyil, həm də görüntü, sürət, dəqiqlik və etik məsuliyyət bu sahənin əsas meyarlarına çevrilib. Azərbaycan mediası dəyişikliklərə sürətlə uyğunlaşaraq həm məzmun, həm forma baxımından fəaliyyətini genişləndirir, regionun informasiya məkanında liderliyini möhkəmləndirir. Mətbuatın uğurlu inkişafında dövlətin göstərdiyi dəstək və diqqət xüsusilə vurğulanmalıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin cari il aprelin 25-də imzaladığı Sərəncamla Azərbaycan milli mətbuatının 150 illik yubileyinin qeyd edilməsi bir daha göstərir ki, ölkəmizdə mətbuat dördüncü hakimiyyət, həm də milli yaddaş, maarifçilik və dövlətçilik təfəkkürünün daşıyıcısı kimi qiymətləndirilir. Yubiley münasibətilə media nümayəndələri üçün bir sıra tədbirlərin təşkili, jurnalistlərin təltif olunmaları, ictimai müzakirələrin keçirilməsi bu sahəyə verilən dəyərin real təzahürüdür. Bu cür təşəbbüslər bir tərəfdən qələm sahiblərinə stimul verir, digər tərəfdən isə jurnalistikanın ictimai nüfuzunu daha da artırır. Bu da sübut edir ki, "Əkinçi" ilə başlanan yol davam edir, dəyişən zamanın ruhuna uyğun daha da zənginləşir və genişlənir. Əsası Həsən bəy Zərdabi tərəfindən qoyulan milli mətbuat ənənəsi artıq bir əsr yarımdır ki, zamanın sınaqlarında möhkəmlənərək uğurla inkişaf edib. Jurnalistlər o ənənənin davamçıları, sözün vicdanını və məsuliyyətini daşıyan iradə sahibləridirlər. Azərbaycan mətbuatının 150 illik yubileyi bir daha xatırladır ki, söz əgər vicdanla yazılıbsa, maarifləndirirsə və həqiqəti deyirsə heç vaxt gücdən düşmür. Əksinə, zamanın ruhunu yaşadır və gələcəyin yolunu işıqlandırır.

**Ləman TƏHMƏZ,
Fidan ƏLİYEVA,
"Respublika".**